

***Əgər kimsə Azərbaycanın dövlətçiliyinə xəyanət edəcəksə, mən son damla qanıma qədər onunla mübarizə aparacağam. Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin keşiyində bir vətəndaş kimi də, bir prezident kimi də durmuşam, duracağam və bu yolda hər dəqiqə, hər gün şəhid olmağa hazıram.***

***Heydər ƏLİYEV***
***Ümummilli lider***

# Ümummilli liderin xilaskarlıq missiyasının təməlinin qoyulduğu gün

***Hər bir xalqın tarixində dönüş nöqtəsi olan mütərəqqi hadisələr tarixə qızıl hərflərlə yazılır və gələcək nəsillər həmin səhifələri öyrənir və onların əhəmiyyətini dərk edirlər. 1918-ci ildə dövlət müstəqilliyinin elanı, 1969-cu ildə Sovet Azərbaycanında Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra respublikada inqilabi dəyişikliklərin baş verməsi, 1991-ci ildə dövlət müstəqilliyinin bərpa edilməsi, 1993-cü ildə müstəqilliyin itirilmə təhlükəsinin aradan qaldırılması, 2020-ci ilin payızında Ermənistanın Azərbaycan torpaqlarını işğalına son qoyulması yaxın tariximizin dönüş nöqtələridir.***

1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra özünü Xalq Cümhuriyyətinin siyasi və hüquqi varisi elan etdi və qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi. Az müddət sonra Azərbaycan Xalq Cümhuriyyəti dövrünün dövlət rəmzləri bərpa olundu. Xalqın iradəsi ilə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası çox mürəkkəb şəraitdə fəaliyyət göstərməyə başladı. Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi, hakimiyyət uğrunda daxili çəkişmələr, iqtisadiyyatın çökməsi ölkəni xeyli zəiflətmişdi. Azərbaycan Xalq Cəbhəsi – Müsavat iqtidarı yarıtmaz fəaliyyəti ilə ölkəni vətəndaş müharibəsi və parçalanmaq həddinə çatdırmışdı. Azərbaycanın qəsdinə duran xarici güclərin təhriki ilə ölkəmizin şimalında və cənubunda separatçılıq meyilləri ciddi təhlükəyə çevrilmişdi.

Məhz ölkənin belə bir ağır vəziyyətində ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyununda xilaskarlıq missiyası ilə yenidən hakimiyyətə qayıtması ölkənin fəlakətlər burulğanından xilasının başlanğıcı oldu. Ona görə də xalqımız hər il iyunun 15-ni Azərbaycan xalqının Milli Qurtuluş Günü kimi bayram edir.

Ölkəmizdə XX əsrin 70-ci illərindən XIX əsrin əvvəllərinədək olan dövr Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev yeganə azərbaycanlıdır ki, SSRİ hökumətinin başçısının birinci müavini və dövlətin ali siyasi orqanının –Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü olmuşdur. Lakin Heydər Əliyevin 1987-ci ilin oktyabrında erməni lobbisinin təkidi ilə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini və Sov. İKP MK Siyasi Bürosunun üzvü vəzifəsindən istefaya göndərilməsindən, 1993-cü ilin iyununda yenidən Azərbaycanda hakimiyyətə qayıdışınadək olan dövrdə müxtəlif səviyyələrdə, cürbəcür yollarla onun siyasi səhnədən sıxışdırılıb çıxarılmasına cəhdlər göstərilmişdir.

1990-cı ilin iyulunda Moskvadan Vətənə dönüşündən, 1993-cü ilin iyununda xilaskarlıq missiyası ilə Naxçıvandan Bakıya qayıtmasınadək olan dövrə xronoloji ardıcıllıqla nəzər salaq.

Heydər Əliyevin Moskvadan Azərbaycana qayıtması, lakin ona Bakıda qalmağa imkan verilməməsi səbəbindən doğulub boya-başa çatdığı Naxçıvana getməsi anından hakimiyyətdə olan qüvvələr daim onun yenidən böyük siyasətə qayıdışına hər cür maneələr törətmiş, hətta onu fiziki cəhətdən məhv etməyə belə cəhd göstərmişdilər. Lakin Heydər Əliyev həmin ildə də Naxçıvandan Azərbaycan SSR-in xalq deputatı seçilmiş, 1991-ci il sentyabrın 3-də isə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri seçilməklə yanaşı, müvafiq qanunvericiliyə əsasən həm də Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini olmuşdur.

İlk gündən Heydər Əliyev Naxçıvanda çox ciddi maneələrlə qarşılaşmışdı. Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində blokadaya düşən naxçıvanlılar bütün ümidini Ali Məclisin Sədri Heydər Əliyevə bağlamışdılar. Heydər Əliyev şəxsi nüfuzu, Türkiyə və İranla olan əlaqələri sayəsində muxtar respublikanı düşdüyü ağır vəziyyətdən xilas etdi. Fəaliyyətinin ilk dövründə xalqın azadlıq mübarizəsində iştirak edən Xalq Cəbhəsi Heydər Əliyev tərəfindən dəstəklənirdi. Lakin hakimiyyətə gələndən sonra Xalq Cəbhəsi böyük şəxsiyyətin xalq içərisindəki nüfuzundan qorxaraq, ona qarşı mübarizəyə başlamışdı.

Xalq Cəbhəsinin hakimiyyətə gəlməsindən sonra neobolşevikcəsinə həyata keçirdiyi kadr siyasətinin Naxçıvanda tətbiq edilməsinə qarşı çıxan Heydər Əliyev, tezliklə AXC-Müsavat iqtidarının bir nömrəli düşməninə çevrildi.

Ölkə ziyalıları, sadə insanlar dövlətin ağır vəziyyətdən qurtuluşunun yeganə yolunu Heydər Əliyevin ətrafında birləşməkdə görürdülər. Xalqın sağlam qüvvələrini özündə cəmləşdirən Qurtuluş hərəkatı meydana gəlir və böyük siyasətçi Heydər Əliyevin ətrafında toplaşırdı. Xalqın nümayəndələri, alimlər, nüfuzlu ziyalılar Naxçıvana gedib, Heydər Əliyevdən yenidən böyük siyasətə qayıtmasını xahiş edirdilər. 1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər nüfuzlu ziyalısı “Səs” qəzeti vasitəsilə Heydər Əliyevə Qurtuluş hərəkatına rəhbərlik etməsi barədə rəsmi müraciət göndərdi.

Oktyabrın 24-də Naxçıvan Xalq Cəbhəsinin yerli qurumlarına məxsus olan silahlı dəstələr Daxili İşlər Nazirliyinin binasını və televiziya studiyasını ələ keçirdilər. Lakin naxçıvanlılar onları müdafiə etmədilər və silahlı çevriliş cəhdi baş tutmadı. Xalq qətiyyətlə görkəmli siyasi xadim Heydər Əliyevi dəstəklədi. Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis qurultayı keçirildi. Partiyanın təsis bəyanatında qeyd olunurdu ki, bu partiyanın başlıca proqram məqsədi dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyü, sivilizasiyalı demokratik hüquqi dövlət, əmin-amanlıq və ictimai həmrəylik, sabit və sosialyönümlü iqtisadiyyat yaratmaqdan, geniş demokratik islahatlar həyata keçirməkdən ibarətdir.

1992-ci ilin oktyabrından 1993-cü ilin fevral ayınadək olan dövrdə AXC-Müsavat iqtidarı Naxçıvana təzyiqlərini daha da gücləndirmişdi. Ali Məclisin Sədri Heydər Əliyev bir tərəfdən genişlənən erməni təcavüzünün qarşısını alır, digər tərəfdən isə İran və Türkiyə ilə şəxsi əlaqələri hesabına muxtar respublikanın ərzaq və yanacaq problemlərini həll edirdi. AXC-Müsavat iqtidarı isə İran və Türkiyəyə təsir göstərməyə çalışırdı ki, Naxçıvanla birbaşa əlaqələrə son qoyulsun. Bu mərhələ AXC-Müsavat iqtidarının əsl simasının açıldığı, onun anarxist siyasətbazlıqdan başqa bir işə yaramadığının aşkarlandığı dövr oldu. 1993-cü ilin fevralında iqtidarın ölkəni hərbi, siyasi və iqtisadi cəhətdən fəlakətə yuvarladığı hamıya bəlli oldu.

1993-cü il fevralın əvvəlində Əbülfəz Elçibəy dərk etmişdi ki, onun komandası ölkəni fəlakətə sürükləyir. Məhz bundan sonra Əbülfəz Elçibəy Heydər Əliyevin dövlətçilik təcrübəsindən, idarəetmə məharətindən faydalanmağı zəruri hesab etmişdi. Fevralın 12-də Prezident iqamətgahında Əbülfəz Elçibəy Heydər Əliyevlə görüşmüş, onunla 8 saat fasiləsiz məsləhətləşmələr aparmışdı.

Aprelin 2-də Kəlbəcər rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi ölkədə vəziyyəti daha da gərginləşdirmişdi. Artıq ölkə idarəolunmaz hala gəlmişdi. Güc strukturları hakimiyyətin nəzarətindən çıxmışdı. Ayrı-ayrı silahlı dəstələr hakimiyyət uğrunda mübarizəyə cəlb edilmişdilər. Nizami ordu əvəzinə könüllü batalyonlar yaradıldığından, bütün cəbhə boyu məğlubiyyət məğlubiyyətin ardınca gəlirdi. Ölkənin böhran vəziyyətə düşdüyünü görən Prezident Ə.Elçibəy fövqəladə vəziyyət tətbiq edilməsi haqqında fərman imzalamışdı.

Gəncədə 1993-cü ilin İyun hadisələri ölkədə vəziyyəti daha da ağırlaşdırdı. Burada korpus komandiri Surət Hüsynov hökumətə tabe olmayan “hərbi birlik” yaratmışdı. 709 saylı hərbi hissə Müdafiə Nazirliyinə tabe olmur, iqtidar isə hərbi müxalifətin öhdəsindən gələ bilmirdi.

Gəncəbasarda qanuni hakimiyyəti bərqərar etmək, 709 saylı hərbi hissəni tərksilah etmək məqsədilə iyunun 4-də səriştəsiz bir əməliyyat həyata keçirilmişdi. Gəncəyə 3 minədək canlı qüvvə və texnika yeridilmişdi. Hərbi hissənin kazarmaları dağıdılmış, hərbi təyyarələr havaya qalxıb hava limanını darmadağın etmişdi. Qardaş qanı tökülmüş, 35 nəfər həlak olmuş, 135 nəfər yaralanmışdı. 1200 döyüşçü, habelə respublikanın baş prokuroru İxtiyar Şirinov və milli təhlükəsizlik nazirinin müavini Sülhəddin Əkbərov girov götürülmüşdü. Hökumət qüvvələri biabırcasına məğlub olmuşdu. Surət Hüseynovun dəstələri Bakı üzərinə hərəkətə başlamışdılar. Prezidentin, Ali Sovetin Sədrinin, Baş nazirin və güc strukturlarının rəhbərlərinin istefası tələb edilirdi.

Belə bir məqamda keçmiş AXC-Müsavat yetkililəri Heydər Əliyevə üz tutdular. Onu böyük dövlət xadimi kimi, alovlanan vətəndaş müharibəsini yatırmaq üçün təkidlə Bakıya dəvət etdilər. AXC-Müsavat iqtidarının ayrı-ayrı yüksək vəzifəli şəxslərinin, nüfuzlu ziyalıların, ağsaqqalların təkidli tələbi ilə iyunun 9-da Heydər Əliyev Naxçıvandan Bakıya gəldi. O, alovlanan vətəndaş müharibəsini söndürmək üçün iyunun 13-də Gəncəyə getdi. Qardaş qırğınının qarşısını aldı.

Gəncədə baş qaldıran qiyam AXC-Müsavat iqtidarının süqutunu sürətləndirdi. Ölkə ziyalıları, sadə insanlar böyük fəlakətin yaxınlaşdığını hiss edirdilər. Yaranmış vəziyyətlə əlaqədar parlamentin sədri İsa Qəmbər, baş nazir Pənah Hüseynov və üç güc nazirliyinin rəhbərləri istefaya getməyə məcbur oldular.

İyunun 14-də ordu Navahı yaxınlığında qiyamçılarla üz-üzə dayanmışdı. Danışıqlar nəticəsində qiyamçıları Lökbatan yaxınlığında və Şamaxı yolunun 75 kilometrliyində saxlamaq mümkün olmuşdu. Ölkəni parçalamaq istəyən xarici və daxili güclər fürsətdən istifadə edərək vətəndaş müharibəsi törətməyə çalışırdılar.

AXC-Müsavat iqtidarı pərən-pərən düşdü və istefalar başladı. Bəzi nazirlər isə vəzifələrini “dondurdular”. Belə ağır bir məqamda – iyunun 15-də Milli Məclis Heydər Əliyevi Ali Sovetin Sədri seçdi. Bununla da müasir tariximizdə yeni mərhələyə qədəm qoyuldu.

Heydər Əliyev parlamentin sədri seçiləndən iki gün sonra Prezident Əbülfəz Elçibəy iyunun 17-dən 18-nə keçən gecə gizlicə doğulduğu Kələkiyə getdi və qayıtmadı. Ona dəfələrlə geri qayıdıb ölkəyə rəhbərlik etmək təklif olunsa da, hər dəfə, faktiki olaraq rədd cavabı alındı. Milli Məclis iyunun 24-də prezident səlahiyyətlərini Ali Sovetin Sədri Heydər Əliyevə həvalə etdi.

Məhz Heydər Əliyevin qətiyyəti, gecəli-gündüzlü gərgin fəaliyyəti sayəsində vətəndaş müharibəsinin, ölkənin parçalanmasının və separatizmin qarşısı alındı. Ona görə də iyun ayının 15-i tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Xalqın tələbi ilə Milli Məclis 1997-ci ilin iyununda bu günün bayram kimi qeyd edilməsi ilə bağlı qərar qəbul etdi.

Azərbaycan xalqı tədricən xaos və anarxiyadan, dövlətçiliyini itirmək təhlükəsindən xilas oldu. Xalqın azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin hakimiyyətə qayıdışı əsaslı dönüş nöqtəsi oldu. Qurtuluş missiyalı bu qayıdış Azərbaycan xalqının itirilmiş inamımı özünə qaytardı, sabaha və gələcəyə olan ümidini artırdı.

1993-cü il iyulun 25-də ölkənin vətəndaş müharibəsinə sürükləndiyi, bölgələrdə separatizmin baş qaldırdığı dövrdə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Heydər Əliyev Ağdam şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində bölgədə yaranmış vəziyyətlə əlaqədar Bərdəyə səfər etmiş, məcburi köçkünlərlə görüşmüş, onların vəziyyətinin yüngülləşdirilməsi məqdəsdilə operativ müşavirə keçirmişdi. Müşavirənin sonunda ümummilli lider demişdi: “Xalqımız mütləq birləşməli, səfərbər olmalı, özünün vətənpərvərlik hisslərini geniş nümayiş etdirməli, torpaqlarımızı düşməndən azad etməlidir. Bu, hər bir azərbaycanlının borcudur. Mən sizi, Azərbaycan xalqını bu müqəddəs borcu yerinə yetirməyə çağırıram”.

Məhz xalqımızın Heydər Əliyevin ətrafında səfərbər olması, ölkədə sabitliyin bərqərar edilməsi sayəsində qaçqınlar və məcburi köçkünlər probleminin kompleks şəkildə həllinə start verildi.

1993-cü il avqustun 7-də cənub bölgəsində üzdəniraq “Talış Muğan Respublikası” yaradıldığı elan olundu. Qondarma “hökumət” təşkil edildi. Rusiya, İran və Belarus dövlətlərinə, BMT-yə müraciət edib bu qondarma qurumu tanımağı xahiş etdilər. Heydər Əliyev xalqın dəstəyinə arxalanaraq, problemin dinc vasitələrlə həllinə üstünlük verdi. Avqustun 13-də o, həmin bölgədən olan xalq deputatları, ziyalılar, ağsaqqallarla görüşdü. Onlar separatçılara qarşı qəti tədbirlər görülməsini tələb etdilər. Avqustun 17-də Milli Məclis Lənkəran hadisələrinə siyasi qiymət verdi, onu Azərbaycanın müstəqilliyinə qarşı olan qüvvələrin siyasi oyunu kimi ifşa etdi. Avqustun 21-23-də güc strukturlarının həyata keçirdikləri tədbirlər sayəsində üzdəniraq “Talış Muğan Respublikası” ləğv edildi.

Xalq öz rəhbəri Heydər Əliyevin ətrafında daha sıx birləşməyə başladı. Milli Məclisin qərarı ilə 1993-cü il avqustun 29-da Prezident Əbülfəz Elçibəyə etimad haqqında referendum keçirildi. Referendumda iştirak edənlərin 97,5 faizi prezidentə etimadsızlıq göstərdi.

Məhz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə ilk demokratik prezident seçkiləri keçirildi. 1993-cü il oktyabrın 3-də Azərbaycan xalqı yekdilliklə öz böyük oğlunu ölkənin Prezidenti seçdi. Daxili və xarici qüvvələrin Azərbaycanın dövlətçiliyini sarsıtmaq istiqamətində əlbir iş gördükləri bir vaxtda hakimiyyətə qayıdan Heydər Əliyev böyük çətinlikləri dəf etməli oldu. Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar qruplaşmalar cəmiyyətdən təcrid edildilər. İctimai-siyasi sabitliyi pozan qanunsuz silahlı dəstələr ləğv edildi.

Azərbaycan xalqının tələbi ilə siyasi hakimiyyətə qayıtdıqdan sonra Heydər Əliyev demişdi: “Mən ömrümün qalan hissəsini də Azərbaycan xalqına bəxş edirəm!”

1994-cü il mayın 12-də cəbhədə atəşkəsə dair razılıq əldə olundu. Bu vaxta qədər– yəni 1991-1993-cü illərdə ölkədə baş alıb gedən anarxiya şəraitindən, hakimiyyət uğrunda çəkişmələrdən istifadə edən Ermənistan ordusu havadarlarının köməyi ilə Azərbaycanın ərazisinin beşdə birini – Xankəndi şəhərini, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarını, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə bir kəndini işğal etmişdi.

Məhz Heydər Əliyevin xilaskarlıq missiyası sayəsində nizami ordu formalaşdırıldı, Ermənistanın hərbi təcavüzü dayandırıldı, Azərbaycan Respublikasının dövlət müstəqilliyi qorunub saxlanıldı. Ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrin genişlənməsində əsl dönüş yarandı.

1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandı və yeni neft strategiyasının həyata keçirilməsinə başlanıldı. Ölkədə ictimai-siyasi sabitliyin bərqərar edilməsi neft-qaz sektoruna milyardlarla dollar sərmayə yatırılmasına imkan yaratdı. İqtisadi islahatların həyata keçirilməsi istiqamətində böyük addımlar atıldı. Torpaq islahatı həyata keçirildi. Qaçqınların və məcburi köçkünlərin statusu, sosial müdafiəsi, iş və yaşayış yerləri ilə təmin olunması ilə bağlı müvafiq hüquqi aktlar qəbul edildi, onların həyat şəraitinin yaxşılaşdırılması üçün müxtəlif növlü güzəştlər tətbiq olundu.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasının yaradıcısı olan Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının bərqərar olması üçün əsaslı zəmin yaratdı. Ümummilli liderin hakimiyyətdə olduğu 1993-2003-cü illər Azərbaycan tarixinə dövlətçiliyin möhkəmləndirilməsi, dərin islahatlar dövrü və beynəlxalq birliyin tamhüquqlu subyektinə çevrildiyi dövr kimi həkk olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi daxili və xarici siyasət kursu 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Məhz bu mərhələdə enerji resurslarının ixracından əldə olunan gəlirlərin xüsusi bir qismi iqtisadiyyatın şaxələndirilməsinə, qeyri-neft sektorunun inkişafına, cəmiyyət həyatının digər sahələrinin yeniləndirilməsi və müasirləşdirilməsinə yönəldildi. Ardıcıl şəkildə qəbul olunmuş və həyata keçirilmiş çoxsaylı dövlət proqramları, reallaşdırılmış xüsusi layihələr güclü iqtisadi potensialın formalaşdırılması, insan kapitalının səfərbər edilməsi və səmərəli istifadəsi, ölkənin bütün sahələr üzrə müasir infrastrukturlarının yaradılması əhalinin rifahının yüksəldilməsini təmin etdi. Aparılan uğurlu daxili və xarici siyasətin nəticəsidir ki, bu gün Azərbaycan dünyada müstəqil siyasət yürüdən nüfuzlu dövlət, etibarlı tərəfdaş kimi tanınır və qəbul olunur.

Heydər Əliyev prezidentliyi dövründə məcburi köçkünlərlə keçirdiyi hər bir görüşündə bildirirdi ki, Azərbaycan əraziləri işğaldan azad ediləcək, yer-yurdlarından didərgin düşən soydaşlarımızın el-oba həsrətinə son qoyulacaq. Lakin mövcud geosiyasi vəziyyət Heydər Əliyevin sağlığında Azərbaycan torpaqlarının işğaldan azad olunmasına imkan vermədi. Ümummilli lider Heydər Əliyevin arzularını onun davamçısı İlham Əliyev həyata keçirdi. İlham Əliyevin hakimiyyətdə olduğu illər ərzində ölkə iqtisadiyyatının gücləndirilməsi, valyuta ehtiyatlarının yaradılması, ordunun müasir texnika ilə təchiz edilməsi, diplomatiya sahəsində qazanılan uğurlar Azərbaycan Ordusunun zəfər yürüşünə başlamasına şərait yaratdı. 2020-ci il sentyabrın 27-də növbəti erməni təxribatına cavab olaraq başlanan əks-həmlə 44 gündə Zəfərlə başa çatdı. Dünyanın ən güclü 50 ordusu sırasında yer alan Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində öz şücaəti ilə dünyanın hərb tarixinə yeni səhifə yazdı. 1993-cü ildən bəri icra edilməyən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi yerinə yetirdi. Ərazi bütövlüyümüzü bərpa edən Azərbaycan Ordusu qəhrəman, yenilməz, məğrur xalq olduğumuzu bir daha dünyaya nümayiş etdirdi. Heydər Əliyevin ata vəsiyyətini oğul İlham Əliyev yerinə yetirdi.

Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşanın işğaldan azad olunduğu gün xalqa müraciətində dedi: “Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!”

Şuşa şəhərinin işğaldan azad olunması müharibənin müqəddəratını həll etdi. Noyabrın 10-da Ermənistanın baş naziri kaputilyasiya sənədinə imza atdı. Ermənistan təslim oldu, ağ bayraq qaldırdı və diz çökdü.

Ulu öndər Heydər Əliyevin ruhu şaddır ki, biz hazırda qalib xalq kimi özümüzü dünyaya sübut etdik. Ermənistanın havadarları belə, onu xilas edə bilmədilər.

Bu gün işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri sürətlə həyata keçirilir. Ümummilli liderin dünyalar qədər sevdiyi Şuşa şəhəri tamamilə yenidən qurulur. Heydər Əliyevin dövründə görkəmli şəxsiyyətlərə Şuşada ucaldılan abidələr, erməni vandalları tərəfindən dağıdılan tarixi-memarlıq kompleksləri bərpa edilir. Şuşa daha da gözəlləşir, Azərbaycanın və türk dünyasının mədəniyyət paytaxtı kimi dünyaya təqdim edilir. İşğaldan azad edilmiş ərazilərdə yeni-yeni ağıllı şəhər və qəsəbələr salınır. Zəngəzur dəhlizinin açılması üçün dəmir və avtomobil yollarının açılması istiqamətində ciddi işlər görülür. Ümummilli liderin arzu və istəkləri tədricən reallaşır.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyası haqında demişdir: “Əgər 1993-cü ildə xalqın tələbi və təkidi ilə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycan çox böyük bəlalarla üzləşə bilərdi. Ölkə parçalanma ərəfəsində idi. Vətəndaş müharibəsi, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın itirilməsi, digər təhlükəli amillər ölkəni dağıdırdı. Azərbaycan böhran içində idi.”

1990-cı illərin əvvəllərində baş verən hadisələrin təhlili göstərir ki, əgər 1993-cü ilin iyununda xalqın dəvəti ilə ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtmasaydı, bu gün Azərbaycanın müstəqilliyindən söhbət açmaq mümkün olmayacaqdı. Ona görə də 15 iyun 1993-cü il müasir tariximizdə mühüm mərhələnin başlanğıcı kimi xarakterizə edilir.

Heydər Əliyevin hakimiyyətdə olduğu 1993-2003-cü illər Azərbaycanın bir dövlət kimi yenidən qurulduğu, formalaşdığı və beynəlxalq birliyin tamhüquqlu subyektinə çevrildiyi mərhələdir. Onun özünün dediyi kimi, Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir.

Müstəqil Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi yazılan 15 İyun xalqımız tərəfindən hər il təntənə ilə qeyd edilir və Heydər Əliyevin xilaskarlıq missiyası ehtiramla xatırlanır.

***Nazim MUSTAFA,***
***tarix üzrə fəlsəfə doktoru,***
***Prezident Kitabxanasının***
***şöbə müdiri***